# Cənubi Azərbaycanın qəhrəmanlıq tarixindən - Səttarxan barədə xalq yaradıcılığı...

**"Təbriz Bakıya arxa" rubrikasında Məşrutə inqilabının lideri, xalq qəhrəmanı, güneylilərin Sərdari-Milli adı verdiyi Səttarxan (Səttar xan) barədə, onun qəhrəmanlığını ifadə edən şeirlər, mahnılar, eləcə də "Səttarxan" dastanı haqda söhbət açmaq istəyirik. İnqilablar beşiyi Təbrizdən türk dünyasına günəş kimi işıq saçan Səttarxan Qaradağ mahalında doğulub.**



Güney Azərbaycanda, Təbrizdə xalqımızın azadlığı uğrunda mücadilələr verən, mübarizə aparan xalq qəhrəmanı Quzey Azərbaycanda çox sevilib, adı ilə öyünülüb.

Xalqımızın azadlığı uğrunda mübarizə aparan şanlı qəhrəmanlar sırasında Səttarxan xüsusi yer tutur. Xalqımız öz qəhrəmanına dastan və nəğmələr qoşub, onun şərəfinə bədii əsərlər - roman və şeirlər yazılıb. Təbrizdə Səttarxana abidə qoyulub, şəhərin küçələrindən birinə onun adı verilib.

XX əsrin əvvəllərində irticaçı Məhəmmədəli şah rejiminə qarşı mübarizə aparan istiqlalsevər qəhrəmanımız haqda Mirzə Ələkbər Sabir "Səttərxana" adlı şeir yazıb "Molla Nəsrəddin" jurnalında çap edib.

*Hörməti-heysiyyəti-milliyətin isbat edib,*
*İndi dünyanın təvəccöh nöqtəsi İranədir,*
*Afərinin himməti-valayi-Səttarxanədir.*
*İştə Səttarxan, baxız, İranı ihya eylədi,*
*Türklük, iranlılıq, təklifin ifa eylədi,*
*Bir rəshadət, bir hünər göstərdi, dəva eylədi,*
*Dövlətin bir əynini dünyada risva eylədi,*
*Qaçmayıb pərvanətək oddan, demə pərvanədir,*
*Afərinin himməti-valayi-Səttarxanədir.*
*Afərin təbriziyan, etdiz əcəb əhdə vəfa!*
*Düstü düşmən əl çalıb eylər sizə səd mərhəba!*
*Çox yaşa, dövlətli Səttarxan, əfəndim, çox yaşa!*
*Cənnəti-əladə Peyğəmbər sizə eylər dua,*
*Çün bu xidmətlər bütün islamədir, insanədir,*
*Afərinin himməti-valayi-Səttarxanədir.*

Onu da qeyd edək ki, 1957-ci ildə yazıçı Pənahi Makulu Səttarxana həsr olunmuş "Səttar xan" adlı tarixi bioqrafik roman yazıb. Tarzən Qurban Pirimov müğənni İslam Abdullayevlə birgə Məmməd Səid Ordubadinin sözlərinə "Səttar xan" mahnısını bəstələyib. Bu əsər musiqi tariximizə "Səttarxan təsnifi" kimi düşüb. Bu əsəri İslam Abdullayev, sonradan xalq artisti Alim Qasımov və başqaları ifa ediblər. Bəziləri qeyd edir ki, "Səttarxan təsnifi" ilə "Qaçaq Nəbi"mahnısı arasında melodik oxşarlıqlar var.

Qeyd edək ki, İslam Abdullayevin ifasında "Səttarxan təsnifi" 1909-cu ildə (bəzən 1910 kimi göstərilir) Azərbaycandan kənarda bir səhmdar şirkəti tərəfindən qrammofon valına yazılıb. Qacaq Nəbi haqqında mahnı isə Sovet dövründə Xan Şuşinski başda olmaqla əksər xanəndələrimiz tərəfindən oxunub

Şah diktaturasına qarşı mübarizə aparan xalq qəhrəmanın və fəadilərinin, xalqın "Salari-Milli" adı verdiyi silahdaşı Bağır xanın Təbrizin Əmrəqiz məhəlləsindəki mübarizə dastanı unudulmazdır.

Səttarxan haqda tamaşalar da hazırlanıb.

Təbrizdə Ayna teatr qrupu türkcə "Səttarxan" və ya "Atabəy Parkının Faciəsi" tamaşasını, rejissor Ramin Rasti və ssenarist Nadir Saivərd isə "Səttar xan eposu" tamaşasını hazırlayıblar. Ayna qrupunun hazırladığı "Atabəy Parkının Faciəsi" tamaşası bir sıra xarici festivallarda iştirak edib. 1972-ci ildə İranda "Səttar xan" adlı sənədli film çəkilib.

2018-ci ildə isə İranda "Səttar xan" adlı 10 hissəli bədii serial çəkilib. Filmdə Səttar xanın ömrünün son dörd ili əks olunub. Lakin serialda bəzi faktların təhrifə uğraması və ssenarisi azərbaycanlı fəalların etirazlarına səbəb olub.

*Atlılar ata mindi,*
*Atlandı, ata mindi.*
*Kaş ola ön sırada*
*Səttarxan atam - indi.*

Səttarxana həsr olunan bu bayatı da güneyli-quzeyli azərbaycanlıların dilindədir.

Əslən Güney Azərbaycandan olan və 1946-cı ildə Milli Hökumət devirildikdən sonra Quzey Azərbaycana gələn və burada ustad aşıq kimi özünə böyük şan-şöhrət qazanan aşıq Aşıq Hüseyn Cavan "Səttarxan" dastanını yaradıb.

Ustad aşıq xalq qəhrəmanının doğulduğu Qaradağa həsr etdiyi şeirdə deyir:

*Təbriz bir anadır, sən də oğlusan,*
*El bilir, ürəkdən ona bağlısan,*
*Oğlun Səttarxandan sinə dağlısan,*
*Onunçün ağarıb başın, Qaradağ.*

Aşığın yaratdığı "Səttarxan dastanı"nın qəhrəmanlıq dastanlarımız içində özünəməxsus yeri var. Qeyd edək ki, tarixi qəhrəmanlıq dastanlarının bir qisminin inqilablarla bağlı olub. Tədqiqatçılar onları araşdırarkən Təbriz inqilabının başçısı Səttarxanın adıyla bağlı "Səttarxan" dastanları üzərində dayanır: "Səttarxan" xalqımızda özünün qəhrəman keçmişinə artan marağını nümayiş etdirən tarixi hadisələrin bədii inikasıdır. Dastanda xalq kütləsinin rolu ön planda göstərilməklə, xalqın arzu və istəkləri, onun tarixdəki rolu çox düzgün əks olunmuşdur. Burada həmçinin hakim siniflə məhkum kütlələr arasında sosial antaqonizmlərin qeyri-adi dərəcədə kəskinləşməsi, kütlələrin siyasi fəallığının əhəmiyyətli dərəcədə yüksəlməsi, döyüş əhval-ruhiyyəsinin sürətlə artması, ehtirasların getdikcə qızışması və sairə də öz əksini tapmışdır".

Folklorşünas Rüstəm Rüstəmzadə vaxtilə yazırdı ki, Səttarxan dastanında əsas ideyanın milli-azadlıq hərəkatı və despotizmə qarşı xalqın silahlı mübarizədir. "Burada verilmiş Səttarxan obrazı vətənin və xalqın səadətinə çalışan və bunun üçün qara qüvvələrlə üzləşən, despotizmə qarşı mübarizə aparan görkəmli bir sərkərdə kimi təsvir olunur"- deyən tədqiqatçı qeyd edib. O, inqilabi dastanların başqa qəhrəmanlıq dastanlarından müəyyən fərqli cəhəti kimi bunu əsas götürür ki, inqilabi dastanların əsas qayəsi xalqın azadlığa olan sonsuz məhəbbətini bədii bir şəkildə özündə əks etdirməsidir.

Tarixi qəhrəmanlıq dastanlarımızdan olan "Səttarxan" xan dastanı, onun şəninə yazılmış şeirlər də, hekayə və romanlar da, pyeslər də, filmlər də, qoşulmuş bayatılar da, bəstələnmiş mahnılar da xalqımızın qəhrəman oğlunun xatirəsini işıqlandırır.

İnqilablar beşiyi, Bakının doğma qardaşı, Səttarxanın qəhrəmanlıq dastanı yazdığı Təbriz, sən əbədi qeyrət qalamızsan, sən Bakıya arxasan, dayaqsan, Bakı da sənə…

Bir gün yenə də Səttarxanların ruhunun işığında Təbrizdə inqilab günəşi doğacaq, xalqımız bağımsızlığına qovuşacaq.

*Hünərli, qəhrəman, igid Səttarxan!*
*Adınla öyünür Təbrizlə Bakı.*
*Sənsən azadlığın parlaq günəşi*
*Başımız üstündə parla gün təki…*
*Səttarxan, adınla öyünürük biz!*

***İradə SARIYEVA***